# Birincilərin bayramı

Məktəbə qədəm basan körpələrin--birincilərin qayğıları çoxdur. Axı onlar elm, bilik aləminin ilk cığırlarına qədəm



atırlar. Ana dilimizin açarı olan əlifbanı, riyaziyyatı və s, elmləri öyrənir, bilik aləminə yol tapırlar. Bu isə valideynləri də, müəllimləri də sevindirir. Birincilər birinci dərs ilini artıq başa vurmaq üzrədirlər. Əlifbanı öyrəndikləri üçün üzlərindən bəxtəvərlik yağır öz uşaq dünyasında sanki hər şeyi bitmiş kimi yaşayır, çoxlu şerlər öyrənir, riyazi rəqəmləri dönə-dönə əzbərləyirlər.

Murad Əlibəyov adına Xırxatala kənd tam orta məktəbində bu günlərdə «Əlifba bayramı» keçirilmişdir. «Əlifba bayramı»nda məktəbin direktoru Əhmədiyyə Hacıyev və birincilərin müəllimləri balacaları təbrik etmiş və onlara xoş arzularını bildirmişlər. Hər birinin üzlərində sevinc, xoşbəxtlik sezilən birincilər həmin gün əsl bayram əhval-ruhiyyəsində idilər. Əllərində rəqəmləri və hərfləri əks etdirən plakatlar tutmuş «fidanlar» böyük həvəslə şer, nəğmə oxuyurdular.

Sevincləri aşıb-daşan birincilərin hərəkətlərində onlara bilik öyrədən müəllimlərə hörmət və məhəbbət hiss olunurdu.

Balacalardan Qədir Şahbazov, Əhliman Aslanov, Nicat Səmədov, Ümüd Məmmədzadə, Süreyya Məmmədova və başqaları Vətən, ana, kitab, müəllim haqqında, şerlər oxudular və səhnəciklər göstərdilər.

Tədbirin sonunda valideynlər körpələrə ana qayğısı ilə yanaşan Təranə müəlliməyə birincilərin arzusunu nəzərə alaraq bu bayram tədbirini maraqlı keçirdiyi üçün təşəkkürlərini bildirdilər.

**Mənzər QƏRİBOVA,**
**məktəb uşaq birliyinin sədri.**

# «NEFTÇİ» ÇEMPİONLUĞUNU QƏBƏLƏDƏ QEYD ETDİ

Çempionatın qurtarmasına bir tur qalmış "Neftçi" Qəbələdə "Qəbələ"nin qonağı idi. Çempiona bu il də titulunu qoruyub saxlamaq üçün 1 xal da kifayət edirdi. Elə o, buna Qəbələdə nail oldu.

Oyun qarşılıqlı hücumlarla başlasa da, ilk qol qonaqlardan gəldi. Birinci hissənin 17-ci dəqiqəsində Rəşad Sadiqov komandasının qalibiyyət topunu vurdu.

İkinci hissədə Dodo bu bir topun cavabını qaytarsa da, hesab qonaqlar üçün kifayət idi. 1:1 hesabı ilə başa çatan növbəti XXXI turdan sonra "Neftçi" çempionluğunu elə rəqib meydançasında da qeyd etdi.

**M. RƏHİMOV.**

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

"Daxili işlər orqanlarının sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin elan edilməsi haqqında" Daxili İşlər Nazirliyinin əmrinə əsasən Qəbələ rayon polis şöbəsində yol patrul xidməti inspektoru vəzifəsində 2 vakant yeri tutmaq məqsədi ilə keçirilən müsabiqədə Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət müddətini başa vurmuş, yaşı 20-dən az, 30-dan çox olmayan, boyu 175 sm-dən yuxarı(qadınlar üçün 170 sm) olan normal bədən kütlə indeksli (20-27), düzgün bədən quruluşlu və idman cüssəli, avtomobil nəqliyyatına aid olan orta ixtisas və ya ali təhsilli, sürücülük vəsiqəsi və kompüterlə işləmək qabiliyyəti olan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Şərtlərə uyğun gələn, müsabiqədə iştirak etmək arzusu olan vətəndaşlar 2013-cü ilin may ayının 13-dən iyun ayının 13-dək Qəbələ rayon polis şöbəsinə ərizə ilə müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər.

**–Şəxsiyyət vəsiqəsi**
**–təhsil haqqında sənədin əsli**
**–hərbi bilet (kişilər üçün)**
**–əmək kitabçası**

Təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılaraq, onun sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılacaqdır.

Müsabiqə test imtahanları və müsahibə olmaqla iki mərhələdə keçiriləcəkdir. Test imtahanını müvəffəqiyyətlə vermiş namizəd müsahibəyə buraxılacaqdır.

DİN-nin Baş Kadrlar İdarəsi: -əlaqə tel: 590-93-27, 590-92-21

İnternet ünvanı: www.mia.-gov.az

**Qəbələ RPŞ-nin əlaqə tel: (024)205 18 28 (024) 205 18 22**

# Əzizimiz Fatimə!



*Səni 1 yaşın münasibətilə təbrik edirik. Sən baharda gəlib, ailəmizə yaz sevinci bəxş etdin. Sənə uzun ömür, xoşbəxtlik arzulayırıq.*

***Babaların Qüdrət, Hidayət, nənələrin Tamella, Mülayim, atan Vüsal, anan Rəna, dayın Səxavət, əmin Səməd, bibin Vəfa, xalaların Aynur və Həmidə.***

# Qəbələ şəhər vətəndaşlarının nəzərinə

***Şəhər sakinlərindən etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqələrini dəyişdirmələrini xahiş edirik.***

**QƏBƏLƏ ŞƏHƏR İNZİBATİ ƏRAZİ NÜMAYƏNDƏLİYİ.**

# Böyük uğurun böyük başlanğıcında

***Yaxud həmyerlimiz Rəvan Həsənzadə dünya şöhrətli 3 şirkətin Bakıda keçirilən «Xaricdə təhsil» sərgisinin yüksək nəticələrinə görə Böyük Britaniyanın ən şöhrətli universitetlərindən birində 100 faiz scholarship»lə təhsil almaq şansı qazandı.***

Rəvan Həsənzadə Zarağan hərbi şəhərciyinin sakinidir. Əvvəlcə VII sinfə qədər rus və Azərbaycan dillərində təhsil alıb. Onun hələ yeniyetmə yaşlarından rəqsə də marağı olub və bu sahədə də fərqlənib. Rəvanın iştirak etdiyi rəqs qrupu Türkiyədə çıxış etmək üçün dəvət alıb. Nümunəvi çıxışlardan sonra qrupun ən yüksək səviyyəli rəqqaslarını qardaş respublikanın baş naziri Rəcəb Tayyib Ərdoğan qəbul edib. Bu görüş zamanı Rəvan nazirlə səlist ingilis dilində danışıb. Yeniyetmənin cəsarəti, danışıq qabiliyyəti böyük şəxsiyyətdə maraq doğurur və onun ingilis olduğunu düşünür. Lakin Rəvan azərbaycanlı olduğunu söyləyir və türkcə də öyrəndiyini bildirir. Baş nazir ona bu dili də mükəmməl öyrənməyi tövsiyyə edib.



Rəvan Bakıya qayıdarkən türk dilini da daha diqqətlə öyrənməyə səy göstərir və ali təhsil almaq üçün Türkiyə universitetlərindən birinə qəbul olmağı qarşısına məqsəd qoyur. Lakin atalar yaxşı deyib: «sən saydığını say, gör fələk nə sayır».

Bu il aprel ayının 15-də onun həyatında qəribə bir təsadüf baş verir. Həmin gün Bakı şəhərində «A-Level» Tədris Mərkəzinin əməkdaşlığı ilə dünya şöhrətli 3 şirkətin-SEG, İNTO və DEC şirkətlərinin xaricdə təhsil almaq istəyən şagird və tələbələrimiz üçün sərgisi təşkil edilmişdi.

Rəvan Böyük Britaniyada təhsil almaq istəyən şagird yoldaşının təklifi ilə sərgiyə gəlir. Sərgi təşkilatçılarının müəyyən izahatından sonra dostlar özlərini sınamaq məqsədilə hər ikisi sərgi iştirakçısı olmaq qərarına gəlir və sərgiyə qatılırlar.

Sərginin birinci hissəsi imtahanlara ayrılmışdı. Nəticələrə görə cəmi 5 nəfər qalib seçilməli idi. Həmyerlimiz Rəvan Həsənzadə qalan 4 nəfər iddiaçını da geridə qoyaraq 1-ci yeri tutur. O, hətta inğilis dili imtahanında 100 sualdan 99-na düzgün cavab yazır. Münsiflər heyəti qeyd edir ki. sərginin müxtəlif ölkələrdə fəaliyyət göstərdiyi 30 il ərzində bu günə qədər belə yüksək uğur qazanan şagirdə rast gəlməmişlər. Qaliblər sertifikatlar və hədiyyələrlə mükafatlandırılırlar. Rəvan Həsənzadə isə hədiyyələrlə yanaşı Böyük Britaniyanın ən şöhrətli universitetlərindən birində 100 faiz scholarship»lə təhsil almaq şansı qazanır.

Bəli, Rəvan artıq böyük uğurun böyük başlanğıcı ərəfəsindədir. Ona qarşıdakı məsul təhsil yollarında daha böyük uğurlar, eyni zamanda gələcək həyatında daha yüksək nailiyyətlər qazanmağı arzulayırıq. Qoy yaradan özü səni qorusun, Rəvan!

**Nadir ATAKİŞİYEV.**

*Redaktor*
*O. Ə. Məmmədov.*

**TƏSİSÇİLƏR:**
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**

*Məsul növbətçi N. R. Atakişiyev.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: 5 - 15 - 56.**
**e-mail: gabalanews@mail.ru**

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.

"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149 VÖEN: 4400103601 Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.